# Qabaqcıl təhsil ocağı

(Əvvəli 3-cü səhifədə).

Məzun Durna Abdurəşidli 671 bal, toplayaraq BDU-nun hüquq fakültəsinə, Sona Abdurəşidli isə 601 bal toplayaraq ATU-nı daxil olub. Onu da qeyd etmək lazımdır ki, son iki ildə 3 nəfər məzun məktəbi Qızıl medalla bitirmişdir. 2011—2012-ci tədris ilində Günel Ağayeva, 2012—2013-cü tədris ilində isə Abdurəşidli Sona və Abdurəşidli Durna bacıları bu uğura nail olmuşlar.

Ən yaxşı ənənələrdən biri də odur ki, məktəbin səmimi, işguzar kollektivi var. Onların təşəbbüsləri, köhnə metodlardan cəsarətlə uzaqlaşmaları, şagirdlərə həssas yanaşmaları təlim-tərbiyənin keyfiyyət göstəricisində səmərə verir. Bundan başqa müəllimlər istər dərsdə, istərsə dərsdənkənar məşğələlərdə milli-mənəvi tərbiyəni, məktəblilərin vətəndaşlıq duyğularının istiqamətləndirilməsinə yönəldilən rəngarəng tədbirlər həyata keçirirlər.

Məlum olduğu kimi bu gün ölkəmizin tarixində uğurla həyata keçirilən ümumtəhsil konsepsiyası--Milli Kurikulum şagirdlərin idrakı imkanlarının üzə çıxarılmasını, onun inkişaf etdirilməsini şərtləndirir, fəal təlim prosesinin, yeni qiymətləndirmə mexanizminin ən ümumi tərəflərini əhatə edir. Məktəbin I-IV-V siniflərində dərs deyən bütün müəllimlər kurikulumla bağlı təlim kurslarından keçmişlər. Bu gün məktəbdə ictimai əsaslarla yaradılmış rəsm, bədii qiraət, xor, əl işləri dərnəkləri fəaliyyət göstərir. Məktəbin «Pərvanə» rəqs qrupu və bədii qiraət dərnəyinin üzvləri rayonda təşkil edilən tədbirlərdə uğurla çıxış edirlər.

İki mərtəbəli, 2 korpusdan ibarət olan məktəbdə bir sıra sinif otaqları komputer avadanlığı ilə təmin olunub, zəngin kitabxanası, geniş idman zalı var. «Yeniləşən Azərbaycana yeni məktəb» proqramına uyğun olaraq məktəbin tədris korpusu, eləcə də idman zalı təmir edilmiş, məktəb istilik sistemi və müasir avadanlıqla təchiz olunmuşdur. Bütün bunlara görə məktəbin müəllim kollektivinin pedaqoji fəaliyyəti dövlət qayğısından kənarda qalmadı.

Bu məktəbin uğurları cənab Prezidentimiz İlham Əliyevin 6 avqust 2013-cü il tarixdə imzaladığı sərəncamla «Ən yaxşı ümumtəhsil məktəbi» müsabiqəsinin qalibi oldu və pul mükafatı ilə mükafatlandırıldı. Bu böyük qayğı və diqqətə görə məktəbin direktoru Qəşəngi Musayeva müəllim və şagird kollektivi adından ölkə başçısına minnətdarlığını bildirir. Kollektiv yaxşı bilir ki, bu layiqli qiymətin arxasında daha gərgin zəhmət, gecəli-gündüzlü sərf olunacaq əmək dayanır.

**Aslan CƏLİLOV.**

# Həyatımın ən əlamətdar ili-2013

2013-cü ili həyatımda ən əlamətdar illərdən biridir. Birinci növbədə təhsil aldığım tam orta məktəbi qızıl medalla bitirmişəm. Rayonumuzun 5 qızıl medalçısından biriyəm. Həm də respublikamızın ən nüfuzlu ali məktəblərindən birinə—Azərbaycan Tibb Universitetinə qəbul olunmuşam.



Aldığım medal məni nə qədər sevindirsə də qəlbimi bu hissdən daha güclü bir hiss, yəni məsuliyyət hissi bürüdü. Elə məsuliyyət hissi ki, o, məni mütləq yüksək bal toplamağa vadar edirdi. Bəli, mən 28 iyul 2013-cü ildə 4-cü qrup üzrə testlə qəbul imtahanı verdim və həmin imtahandan 670 bal toplayaraq Azərbaycan Tibb Universitetinin müalicə işi fakültəsinə daxil oldum.

Mənə bu il rayon müəllimlərinin ali məclisində—sentyabr konfransında çıxış etmək şansı da verildi. İlk dəfə belə bir mötəbər məclisdə çıxış etmək, uğurlarımdan danışmaq əlbəttə, mənim üçün böyük fəxr idi. İndi mən paytaxtımızın minlərlə tələbəsindən biriyəm. Müstəqil bir həyata qədəm qoyduğum günlərdə axı bundan yüksək nə ola bilər.

Bu gün təhsilə göstərilən dövlət qayğısının nəticəsidir ki, biz şagirdlər daha səylə oxuyur, yüksək uğurlar qazana bilirik. Uğurlarımız vətənin uğurlarıdır. Bəli, uğurlu gəncliyin astanasındayam. Gələcəyimizin məsuliyyəti isə biz gənclərin üzərinə düşür. İnanıram ki, oxuduğum ali təhsil müəssisəsində də öz rayonumuzun, müəllimlərimin, valideyinlərimin adını daim ucaldacağam.

Tədris ilinin başlanması münasibəti ilə bütün müəllimlərimi, tələbə dostlarımı səmimi qəlbdən təbrik edirəm!

**Nərmin MƏMMƏDLİ,**
**Qəbələ şəhər 1 saylı tam orta məktəbin məzunu.**

# Vətəndaşların seçki hüququ, bu hüququn müdafiəsi və seçki qanunvericiliyinin pozulmasına görə məsuliyyət

(Əvvəli 2-ci səhifədə).

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində isə seçki qanunvericiliyin pozulması ilə əlaqədar inzibati xətaları nəzərdə tutan aşağıdakı normalar qəbul olunmuşdur:

—Seçkiqabağı və ya referendum ilə bağlı təşviqatın aparılması qaydalarının və müddətinin pozulması;

—Təşviqat-nəşr materiallarını qəsdən məhv etmə və ya namizədin seçicilərlə görüşünə mane olma;

—Namizəd haqqında bilərəkdən yalan məlumatlar yayma;

—Seçki komissiyası (referendumun keçirilməsi üzrə komissiya) üzvünün, müşahidəçilərin, vəkil edilmiş şəxslərin, namizədlərin, siyasi partiyaların, siyasi partiyaların bloklarının, referendum üzrə təşviqat qrupunun səlahiyyətli nümayəndələrinin, kütləvi-informasiya vasitələri nümayəndələrinin hüquqlarının pozulması;

—Seçki (referendum) məqsədləri üçün vəzifə mövqeyindən və ya xidməti mövqedən üstünlük əldə etmək üçün sui-istifadə olunması;

—Seçicilər haqqında məlumatların düzgün, tam və vaxtında verilməməsi;

—Seçki bülletenlərinin, səsvermə protokollarının və vəsiqələrinin verilməsi və saxlanması qaydalarının pozulması;

—Dövlət avtomatlaşdırılmış informasiya sistemindən istifadə qaydasının pozulması;

—Seçki (referendum) ilə əlaqədar hədə-qorxu və ya zorakılığa çağıran çıxışlar edilməsi və ya bu cür materialların yayılması;

—Seçicinin bilərəkdən birdən çox seçici siyahısına daxil edilməsi;

—Seçici siyahıları ilə vətəndaşların tanış olmaq hüququnun və digər hüquqlarının pozulması;

—Seçkilərdə (referendumda) iştirak etmək üçün məzuniyyətin verilməsindən imtina etmə;

—Seçici imzalarının toplanması qaydasının pozulması;

—Seçkilərin (referendumun) maliyyələşdirilməsi və ya maliyyə hesabatlarının təqdim edilməsi qaydalarının pozulması;

—Anonim təşviqat materiallarının və ya reklamların hazırlanması və yayılması qaydalarının pozulması;

—Səsvermənin nəticələri və ya seçkilərin yekunları haqqında məlumatın bilərəkdən təqdim edilməməsi və ya dərc olunmaması.

Qeyd olunmuş inzibati xətalara görə fiziki, vəzifəli və hüquqi şəxslərə otuz beş manatdan üç yüz manatadək miqdarda inzibati cərimə və xəbərdarlıq kimi inzibati tənbeh növləri tətbiq olunması nəzərdə tutulur.

Seçicilər, namizədlər, qeydə alınmış namizəd, siyasi partiyalar, siyasi partiyaların blokları, referendum üzrə təşviqat qrupları qeydə alınmış namizədlərin, siyasi partiyaların, siyasi partiyalar bloklarının vəkil edilmiş şəxsləri, müşahidəçilər, habelə seçki komissiyaları vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) həmin qərarın dərc edildiyi və ya alındığı, hərəkətin (hərəkətsizliyin) baş verdiyi gündən və ya maraqlı şəxsin bu haqda məlumat aldığı gündən şikayət etmək hüquqları vardır.

Seçicilər məntəqə seçki komissiyasının qərarından ilkin olaraq müvafiq dairə seçki komissiyasına müraciət etmək, dairə seçki komissiyasında şikayətə baxılmadıqda və ya şikayəti təmin edilmədikdə, dairə seçki komissiyasının qərarından və ya hərəkətindən (hərəkətsizliyindən) Mərkəzi Seçki Komissiyasına, Mərkəzi Seçki Komissiyasının qərarından və ya hərəkətindən (hərəkətsizliyindən) isə apellyasiya instansiyası məhkəməsinə şikayət edə bilərlər. Şikayətdə göstərilmiş qanun pozuntusu Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə uyğun olaraq cinayət hesab oluna bilərsə, müvafiq seçki komissiyası şikayətdə göstərilən çatışmazlıqların və qanun pozuntularının aradan götürülməsinə dair qərar qəbul etməklə yanaşı cinayət işinin başlanması məqsədi ilə müvafiq prokurorluq orqanına müraciət edir. Hər bir şikayətə dair Mərkəzi Seçki Komissiyası əsaslandırılmış qərar qəbul etməlidir.

Seçki hüquqlarının müdafiəsi ilə bağlı iddia ərizələri apellyasiya instansiyası məhkəmələrinə verilir. Seçki (referendumda iştirak) hüquqlarının müdafiəsinə dair işlər üzrə daxil olmuş iddia ərizəsinə apellyasiya məhkəməsi tərəfindən 3 gün müddətində, səsvermə gününə 30 gündən az müddət qalırsa 2 gün müddətində (lakin səsvermə günündən gec olmayaraq), səsvermə günü və həmin gündən sonra daxil olmuş iddia ərizəsinə isə dərhal baxılmalı və onun mahiyyəti üzrə qərar qəbul edilməlidir. Məhkəmə tərəfindən iddia ərizəsinə ərizəçinin, müvafiq seçki komissiyasının və ya digər maraqlı şəxslərin iştirakı ilə baxılır. Məhkəmə iclasının vaxtı və yeri haqqında lazımi qaydada xəbərdar edilmiş göstərilən şəxslərin məhkəməyə gəlməməsi işə baxılmasına və onun həll edilməsinə mane olmur. İş üzrə yazılı formada tam məhkəmə qərarı onun nəticəvi hissəsinin elan olunduğu vaxtdan 24 saatdan, səsvermə gününə 30 gün qalmış və ondan sonra qəbul edilmiş qərarlar isə 18 saatdan gec olmayaraq təqdim olunmalıdır. İş üzrə məhkəmə qərarından həmin qərarın tam formada təqdim olunduğu gündən 3 gün müddətində Ali Məhkəməyə şikayət verilə bilər.

Seçicilər seçki hüquqları və bununla bağlı yaranan vəzifələrin icrasına hörmət və məsuliyyətlə yanaşmalı, seçki qanunvericiliyinin tələblərinə ciddi əməl etməli və bu sahədə qanunun pozulması hallarına yol verməməlidirlər.

**Məqsəd ORUCOV,**
**Qəbələ rayon prokuroru, baş ədliyyə müşaviri.**